cyanmagentayellowblack

Azərbaycan Respublikası
Ailə, Qadın və Uşaq Problemləri üzrə
Dövlət Komitəsi

# QADIN VƏ GENDER MƏSƏLƏLƏRİ SAHƏSİNDƏ 2025-Cİ İL ƏRZİNDƏ GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR

# BÜLLETEN

@aileqadinusaq

@aileqadinusaq

@AileQadinUsaqProblemleriUzreDovletKomitesi

@aileqadinusaq

https://family.gov.az/az

Telefon: (+994 12) 498 00 92
E-poçt: office@family.gov.az
Faks: (+994 12) 493 58 72
Ünvan: Ü.Hacıbəyli 80,Hökumət Evi, IV Qapı

2025-ci ildə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi **qadın hüquqlarının müdafiəsinin gücləndirilməsi, gender bərabərliyinin təmin olunması,** eləcə də **qadınların ictimai-siyasi, sosial və iqtisadi proseslərdə fəal iştirakının təşviqi** istiqamətində fəaliyyətini davam etdirib.

## Ümumi fəaliyyət göstəriciləri

Hesabat dövründə qadın problemləri və gender məsələləri sahəsində **43 təlim, seminar və konfrans** keçirilib, tədbirlərdə ümumilikdə **7588 nəfər** iştirak edib.

**43** təlim, seminar və konfrans

**7588** nəfər iştirakçı

**4** layihə

## Gender bərabərliyi üzrə Milli Fəaliyyət Planı təsdiqləndi

2025-ci il ərzində qadın hüquqlarının qorunması və gender bərabərliyinin təmin edilməsi istiqamətində normativ bazanın təkmilləşdirilməsi məqsədilə “Azərbaycan Respublikasında gender (kişi və qadınların) bərabərliyi üzrə 2026–2028-ci illər üçün Milli Fəaliyyət Planı” təsdiq edilib (Azərbaycan Respublikası Prezidentinin 29 oktyabr 2025-ci il tarixli, 871 nömrəli Fərmanı).

## Gender bərabərliyi üzrə illik hesabat parlamentdə müzakirə edildi




“Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə uyğun olaraq Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin **2024-cü il üzrə** Məlumatı Milli Məclisə təqdim edilib, Dövlət Komitəsinin sədri Parlamentdə təqdimatla çıxış edib.





# “Konstitusiya və Suverenlik İli” çərçivəsində maarifləndirmə tədbirləri və ictimai müzakirələr keçirilib

“Konstitusiya və Suverenlik İli” çərçivəsində Dövlət Komitəsi tərəfindən müxtəlif mövzularda konfranslar keçirilib. Tədbirlərdə **980 nəfər** iştirak edib.

► **“Qızların təhsil hüququ” mövzusunda konfransda** gənc qızların təhsil imkanlarının genişləndirilməsi, onların cəmiyyətdə fəal iştirakının təşviqi, ali təhsil və elm sahəsində bərabər imkanların təmin olunması, eləcə də dövlət və qeyri-dövlət qurumlarının birgə dəstəyi ilə həyata keçirilən təhsil layihələrinin əhəmiyyəti müzakirə olunub. Həmçinin Bakı Dövlət Universiteti ilə Dövlət Komitəsi arasında elmi-tədqiqat, təhsil, sosial və innovativ layihələr çərçivəsində əməkdaşlığın qurulması və inkişaf etdirilməsi məqsədilə Memorandum imzalanıb.






► **“Heydər Əliyev: Azərbaycan suverenliyi və müstəqilliyi xalqımızın azad ruhunun təcəssümüdür”** konfransında Ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində və konstitusion əsasların qurulmasındakı rolu vurğulanıb. Tədbirdə gənclərin, dövlət və ictimai nümayəndələrin iştirakı ilə konstitusiya və dövlətçilik irsinin qorunması, qadınların və gənclərin cəmiyyətə fəal inteqrasiyası, Ulu Öndərin ideyalarının bugünkü inkişaf strategiyasındakı rolu, eləcə də ailənin və gənclərin dövlətçiliyin möhkəmlənməsindəki əhəmiyyəti müzakirə edilib.





► **“Qadın iştirakçılığının təbliği” mövzusunda konfransda** qadınların idarəetmə, əmək və sosial həyatda bərabər iştirakını təmin edən təşəbbüslər və qanunvericilik yenilikləri müzakirə edilib. Konfransda ailə institutunun cəmiyyət və dövlət üçün rolu, qadınların sosial və iqtisadi səlahiyyətləndirilməsi, dayanıqlı inkişafda bərabərliyin əhəmiyyəti vurğulanıb.






► **“Bərabərlik və ədalət yolunda 30 il: nailiyyətlər və çağırışlar” mövzusunda konfransda** Azərbaycan Respublikasının BMT-nin “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” Konvensiyasına qoşulmasının 30 illiyi kontekstində ölkədə qadın hüquqlarının qorunması, gender bərabərliyinin təmin olunması və bu sahədə əldə edilən nailiyyətlər geniş şəkildə müzakirə olunub. Dövlətin qadın siyasətinin hüquqi və institusional əsasları, milli və beynəlxalq öhdəliklərin icrası, həmçinin mövcud çağırışlar panel müzakirələr vasitəsilə təhlil edilib.

► **“Qərbi Azərbaycan Əsilli Gənclər: Tarixi Yurd və Ərazinin Milli Kimlik Məsələlərində Yeri” konfransında** Qərbi Azərbaycanla bağlı tarixi həqiqətlərin təbliği, milli kimlik və tarixi yurd anlayışının möhkəmləndirilməsi, azərbaycanlıların mərhələli deportasiya faktlarının, habelə mədəni irsimizə qarşı törədilmiş vandalizm aktlarının beynəlxalq hüquq müstəvisində tanıdılması və düzgün dərk olunması əsas müzakirə mövzuları kimi ön plana çıxarılıb.







## Qadınların seçki proseslərində iştirakı və cəmiyyətdə rolunun təşviqi

► Dövlət Komitəsi, Mərkəzi Seçki Komissiyası və "Bərabər İnkişaf Naminə" Koalisiyanın birgə əməkdaşlığı çərçivəsində regionlarda **"Qadınların seçkilərdə fəallığının yüksəldilməsi"** mövzusunda tədbirlər keçirilib.





Sumqayıtda, Bakının Xəzər rayonunda və **15 regionda** (Qusar, Xaçmaz, Neftçala, Salyan, Biləsuvar, Masallı, Cəlilabad, Tərtər, Bərdə, Ağcabədi, Füzuli, Göyçay, Sabirabad, Tovuz və Zaqatala) təşkil olunmuş tədbirlərdə **ümumilikdə 1700 nəfər qadın** iştirak edib.

---

► **8 mart – Beynəlxalq Qadınlar Günü** ərəfəsində **2000 nəfər qadının** iştirakı ilə keçirilən **bayram tədbirində** Azərbaycan Respublikası Prezidentinin qadınlara ünvanlanmış təbrik məktubu səsləndirilib.







## İnstitusional potensialın gücləndirilməsi istiqamətində fəaliyyət uğurla davam etdirilib



Dövlət və yerli icra hakimiyyəti orqanlarının gender məsələləri üzrə məsul şəxsləri üçün **“Ailə və gender yönümlü siyasətlər: fərdlərə, təşkilatlara və cəmiyyətə faydaları”** mövzusunda üçgünlük təlimdə **129 nəfər** iştirak edib. Təlimdə gender yönümlü siyasətlərin ailə institutuna, idarəetməyə və cəmiyyətin ümumi rifahına təsiri müzakirə olunub.





## Regionlarda qadın və gənc qızların şəxsi, liderlik və rəqəmsal bacarıqlarının inkişafına dəstək göstərilib

Dövlət Komitəsi və Regional İnkişaf İctimai Birliyinin birgə əməkdaşlığı çərçivəsində **“Güclü cəmiyyətin zərif simaları”** layihəsi üzrə İmişli, Ucar, Göyçay, Saatlı və Şamaxı rayonlarında görüşlər təşkil olunub. Layihə qadınların və gənc qızların şəxsi, liderlik və rəqəmsal bacarıqlarının inkişafına dəstək məqsədi daşıyır. Tədbirlərdə TEDx formatında çıxışlar, fikir mübadiləsi və gənclərin ictimai fəallığının artırılmasına yönəlmiş müzakirələr aparılıb.










## Maarifləndirmə və təhsil sahəsində fəaliyyət

► Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında **“Gender bərabərliyi: əsas anlayışlar, mahiyyəti və əsas istiqamətləri”** və **“Azərbaycanda gender siyasəti: reallıq və perspektivlər”** mövzularında təlimlər keçirilib.

## ► Yüzlərlə qızın ümidlərinə işıq tutan “Gənc qızların təhsilinə dəstək layihəsi”

Dövlət Komitəsi, Elm və Təhsil Nazirliyi və Təhsilin İnkişafı Fondunun əməkdaşlığı ilə “Gənc qızların təhsilinə dəstək” layihəsi 2025-ci ildə də davam etdirilib. Layihənin icra olunduğu dövr ərzində (2021-ci ildən etibarən) **238 gənc** qız proqramdan faydalanıb.

**2021-2025-ci illər ərzində 238 gənc qız layihədən faydalanıb**




*Heydər Əliyev Fondunun vitse-prezidenti xanım Leyla Əliyevanın iştirakı ilə layihə iştirakçıları üçün **məzun günü** keçirilib.*

Dövlət Neft və Sənaye Universitetində təqaüd proqramının iştirakçısı olan tələbələr üçün “Gənc qızların cəmiyyətə asan inteqrasiyasına hazırlıq” mövzusunda keçirilmiş təlimdə **55 nəfər gənc qız** iştirak edib.



Layihə çərçivəsində **“Hənifə Məlikova-Zərdabi adına təqaüd proqramı – 2025”**in təqdimat mərasimi keçirilib. Təqaüd proqramının 2025-ci il üzrə iştirakçıları ölkəmizin **57 rayon** və **16 şəhərindən** olan gəncləri əhatə edib.






Dövlət Komitəsi və Azərbaycan Banklar Assosiasiyasının (ABA) birgə təşkilatçılığı ilə **“Gələcəyə əmin addımlarla”** şəhid xanımlarının təhsilinə dəstək proqramı çərçivəsində görüş keçirilib. Görüşdə 2025-ci ildə ali məktəbə qəbul olunmuş **9 nəfər şəhid xanımı** mükafatlandırılıb.





**2025-ci ildə ali məktəbə qəbul olunmuş 9 nəfər şəhid xanımı layihədə iştirak edib**






Dövlət Komitəsi və Kapital Bankın birgə təşkilatçılığı ilə **"Arzumuz Var" Təqaüd Proqramının** iştirakçıları ilə görüş keçirilib.

**2025-ci ildə:**

- **5 nəfər qız ali məktəbə qəbul olunmuş;**
- **7 nəfər qız 2025-ci ildən etibarən abituriyent hazırlığına cəlb edilmiş;**
- **6 nəfər qız isə 2024-cü ildən etibarən hazırlıq prosesini davam etdirmişdir.**



## İKT-də Qadınlar: Rəqəmsal bacarıqlar və sahibkarlıq imkanlarının təşviqi




**“İKT-də Qadınlar” layihəsi çərçivəsində “Rəqəmsal sahibkarlıq”** müsabiqəsinin yekun mərhələsi baş tutub. **11 finalçı** layihəsini münsiflər qarşısında təqdim edib və qaliblər mükafatlandırılıb. Layihə, qadınların rəqəmsal bacarıqlarının və İKT sahəsində iştirakının artırılmasını və onların sosial təsir yaradan ideyalarını dəstəkləyərək rəqəmsal imkanları genişləndirməyə yönəlmiş təşəbbüslərə diqqət çəkib.

## Qadın və gender məsələləri sahəsində media ilə əməkdaşlıq

Qadın hüquqlarının müdafiəsi, gender bərabərliyinin təşviqi və bu sahədə ictimai həssaslığın artırılması məqsədilə media nümayəndələri, jurnalistlər, blogerlər və sosial media təsirçiləri ilə sistemli əməkdaşlıq həyata keçirilib. Reallaşdırılan layihələr və tədbirlər əsasən maarifləndirmə, peşəkar bilik və bacarıqların artırılması, etik və məsuliyyətli media yanaşmasının təşviqi məqsədi daşıyıb.

**Təlim:**
**2**

**Tədbir**
**9**

**Mediatur**
**3**

**İştirak edən media nümayəndəsi**
**170+**

## Qadın hüquqlarının müdafiəsi naminə beynəlxalq müstəvidə əməkdaşlıq

► Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə ilk dəfə olaraq **"İƏT Həftəsi"** çərçivəsində Laçın şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) **Qadınlar Forumu keçirilib**.




*Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşü keçirilib.*




Forum çərçivəsində qadınların təhsil imkanlarının genişləndirilməsi, yaşıl bacarıqların təşviqi və iqtisadi-sosial proseslərdə liderliyinin artırılması əsas müzakirə mövzuları sırasında yer alıb. **6 beynəlxalq təşkilat** və **8 ölkənin** nümayəndələrinin iştirak etdiyi Forum qadınların dayanıqlı inkişaf, xüsusilə iqlim dəyişikliklərinə qarşı dayanıqlılığın gücləndirilməsində rolunu ön plana çıxaran mühüm regional platforma və İƏT-in 2026–2035-ci illəri əhatə edəcək yeni inkişaf strategiyasının formalaşdırılmasına mühüm töhfə kimi qiymətləndirilib.






► Dövlət Komitəsinin sədri Bahar Muradovanın rəhbərliyi ilə nümayəndə heyəti mart ayında Pekin Bəyannaməsi və Fəaliyyət Platformasının icrası və qiymətləndirilməsinə həsr olunmuş **BMT-nin Qadınların Statusu Komissiyasının 69-cu sessiyasında** iştirak edib.








► Nyu-Yorkda keçirilən sessiya çərçivəsində Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), İƏT-in İslam Ölkələri üzrə Statistik, İqtisadi və Sosial Tədqiqat və Təlim Mərkəzi (SESRIC) və BMT-də İslam Əməkdaşlıq Təşkilatının Daimi Nümayəndəliyinin birgə təşkilatçılığı ilə **"Bakı İqlim Koalisiyası – KOB-ların Yaşıl Keçidi: Qadınların Gücləndirilməsi"**, həmçinin Türkiyə Respublikasının Ailə və Sosial Xidmətlər Nazirliyinin təşkilatçılığı ilə **"Rəqəmsal trendlər: qadın sahibkarlığı və gələcək iqtisadiyyat formalaşdırılması" adlı yan tədbirlər** keçirilib.



► Eyni zamanda Türkiyənin Nyu Yorkdakı Baş konsulluğu, Ailə və Sosial Siyasət Nazirliyi və “Yaşıl ay”ın təşkilatçılığı ilə keçirilən **“Asılılıq və bərpa” adlı qadın forumunda** Azərbaycan nümayəndə heyəti iştirak edib.






► Dövlət Komitəsinin sədri Bahar Muradovanın rəhbərliyi ilə nümayəndə heyəti növbəti dəfə sentyabr ayında Nyu-York şəhərində keçirilən BMT-nin Qadınlara dair Pekin Konfransının 30 illiyinə həsr olunmuş Baş Assambleyanın Yüksək səviyyəli iclasında iştirak etmişdir. Komitə sədri iclas çərçivəsində Türkiyə Respublikasının Ailə və Sosial Xidmətlər Nazirliyinin təşkilatçılığı və bir sıra ölkə və təşkilatların, habelə Dövlət Komitəsinin həmtəşkilatçılığı ilə keçirilən **“Birlikdə daha güclüyük: Ailədən Qaynaqlanan Qlobal Həmrəylik” adlı yan tədbirdə** çıxış edib.





► Dövlət Komitəsinin sədri Türkmənistanda keçirilən **“Müasir cəmiyyətdə qadınların rolu: dayanıqlı tərəqqi naminə beynəlxalq əməkdaşlığın inkişafı”** mövzusunda beynəlxalq konfransda iştirak edib.

## Gender əsaslı zorakılıqla mübarizə

### *Məişət zorakılığı ilə bağlı Dövlət Komitəsinə daxil olan müraciətlərin təhlili*




2025-ci il ərzində Dövlət Komitəsinə məişət zorakılığı ilə bağlı ümumilikdə 558 müraciət daxil olub, **109 mühafizə orderi verilib.** Daxil olan müraciətlərdə fiziki zorakılıq üzrə şikayətlər üstünlük təşkil edib və şikayət edənlər zorakılığın bir neçə növünə məruz qalıb. Statistikaya əsasən, zorakılığa məruz qalanlar arasında qadınlar **(539)** və uşaqlar **(515)** üstünlük təşkil edib. Qeyd edək ki, müraciət edənlərin əksəriyyəti qohumu **(395)**, əri **(228)** və keçmiş əri **(108)** tərəfindən zorakılığa məruz qaldığını bildirib.

► **"Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq"** kampaniyası çərçivəsində Dövlət Komitəsi və Suraxanı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə **"Təhlükəsiz həyatın qurulmasında icma liderlərinin rolu: Suraxanıda yeni sosial yanaşma"** mövzusunda konfrans keçirilmişdir. Konfrans çərçivəsində "Şiddətə qarşı sülhün səsi" adlı pantomim tamaşa nümayiş olunmuş, daha sonra **"Zorakılığa qarşı mübarizədə ictimai həmrəylik və hüquqi dəstək"** və **"Qadın hüquqlarının qorunması – davamlı inkişafın əsas prinsipi"** mövzularında panel müzakirələri aparılıb.








► Həmçinin, Dövlət Komitəsi Bakı Dövlət Universiteti ilə birgə əməkdaşlıq çərçivəsində "Gender əsaslı zorakılıqla mübarizə" mövzusunda maarifləndirici seminar keçirib.

► Dövlət Komitəsi tərəfindən hesabat dövründə **BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitəsinin (CEDAW)** tövsiyələrinin icrası məqsədilə yaradılmış aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət işçi qrupun iclasları keçirilib.









## Məişət zorakılığının qarşısının alınması sahəsində institusional mexanizmlərin gücləndirilməsi

► Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30 iyul 2024-cü il tarixli, 367 nömrəli Qərarı ilə təsdiq edilmiş **"Məişət zorakılığının qarşısının alınması sahəsində Monitorinq və Əlaqələndirmə Qruplarının fəaliyyət Qaydası"**na əsasən 2025-ci ildə Dövlət Komitəsi tərəfindən Monitorinq və Əlaqələndirmə Qrupu yaradılmışdır. Monitorinq və əlaqələndirmə qruplarının təlimləndirilməsi istiqamətində **33 rayonu** əhatə etməklə **4 regionda** görüşlər keçirilmişdir.

► Məişət zorakılığının qarşısının alınması sahəsində Monitorinq və Əlaqələndirmə Qrupunun fəaliyyəti və əhəmiyyəti barədə ictimaiyyətin məlumatlandırılması məqsədilə hesabat dövrünün sonunda Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanovanın iştirakı ilə mətbuat konfransı keçirilmişdir.





## Həssas qadın qrupları ilə iş və institusional əməkdaşlıq

Dövlət Komitəsi ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Penitensiar Xidməti arasında əməkdaşlıq çərçivəsində 4 saylı cəzaçəkmə müəssisəsində məhkum qadınların problemlərinin öyrənilməsi məqsədilə görüşlər keçirilmişdir.

# QEYDLƏR

# QEYDLƏR